**UOT 78.03**

**ELVİRA ƏLİYEVA***

# NƏFƏS ALƏTLƏRININ TƏDRISI VƏ MÜASIR PROBLEMLƏRI

***«Simfonik və nəfəs alətləri orkestrləri üçün lazımlı olan musiqi alətləri üzrə mütəxəssislər azdır».*** *"Bu sənəti yaşatmaq lazımdır. Simfonik və nəfəs alətləri orkestrlərinin gələcəyini parlaq görmək arzusundayıq. Məndə həmkarlarım kimi, hesab edirəm ki, bu sahəni yaşatmaq, gənclərin sənətdə irəli getməsi üçün onlarda sevgi, inam yaratmaq lazımdır. Klassik musiqi ilə məşğul olub, onu yaşatmaq özü çətin sənətdir, bu yolu sona qədər gedənlər dözümlü insanlardır. Biz musiqi kollecində oxuyarkən müəllimlər qeyd edirdilər ki, əgər 5 nəfərdən biri bu yolu layiqincə addımlayacaq, bu sənətdə parlayacaqsa, deməli, bu sənət yaşayacaq.*

*Mirzə İbrahimov demişdir: "Müəllimlik ! Yazıçılıqdan sonra mənim ən yüksək tutduğum bir sənətdir. Çalışın uşaqlara o qədər həssas olun ki, onların ürəyindəki qığılcımları alovlandıra biləsiniz, ondan sonra özləri irəliləyəcək. Gələcəkdə onların parladığını, xoşbəxt olduğunu gördükdə isə sən yüz qat artıq sevinəcəksən".*

**Açar sözlər**: *musiqi, nəfəs alətləri,*

Respublikanın musiqi təhsilinə aid olan bütün təhsil müəssisələrində nəfəs musiqi alətləri - ixtisasları tədris olunur. Uşaq musiqi məktəblərində, orta ixtisas musiqi məktəblərində, musiqi kolleclərində, bu alətlər üzrə ifaçılıq ixtisaslarına hər il dövlət tərəfindən şagird və tələbə qəbulu həyata keçirilir. Bir sözlə, respublikada üçpilləli musiqi-təhsil sisteminin bütün pillələrində bu alətlərin tədrisi mövcud olmuş və olmaqdadır. Bu çalğı alətləri üçün ixtisas-fənn proqramları, metodik vəsaitlər, müxtəlif tədris vəsaitləri, o cümlədən not-tədris materialları tərtib olunur, yazılır, onlara rəy verilir, müvafiq nazirliklər tərəfindən baxılır, qrif verilir və nəşr edilirlər. Əsas məqsəd bu alətlər üzrə ifaçı və müəllim kadrları yetişdirməkdir. Lakin təəssüf ki, nəfəs alətlərinin xüsusən də fleyta alətinin tədrisində artıq yüz ildir hökm sürən ciddi bir problem bu gün də həllini tapa bilmir. Məsələ bundadır ki, nəfəs alətləri üçün bəstələnən tədris və konsert pyesləri barmaqla sayılacaq qədər azdır. Bu alətlər üzrə ibtidaidən aliyə doğru təhsilin verilməsi, onların tədrisi prosesi, keçirilən ixtisas dərsləri üçün vəsait demək olar ki, yox dərəcəsindədir barmaqla sayılacaq qədər azdır

Bəli, reallıq budur ki, nəfəs alətlərinin tədrisi üçün şagird və tələbələrə öyrətməyə əsər tapılmır. Xüsusi olaraq, yazılan əsərlərin sayı o qədər azdır ki, ixtisas müəllimləri onları həm uşaq, həm orta, həm də ali musiqi məktəblərində keçmək zorunda qalırlar. Nəticədə müxtəlif alətlər, məktəblər, siniflər, kurslar üçün ixtisas-not proqramlarında pyeslər istər-istəməz təkrar olunurlar. Problem də elə bundadır: tədris olunan nəfəs alətləri üçün pyeslər, texniki məşğələ və etüdlər çox azdır, hətta o qədər azdır ki, nəfəs alətləri üzrə mövcud tədris repertuarının cəmi 5-10 faizini təşkil edə bilirlər. Nəfəs alətlərimizə aid olan tədris-not not ədəbiyyatının qıtlığı, bu sahədə hökm sürən durğunluq, artıq neçə onilliklərdir ki, musiqi təhsilinin həll olunmayan problemi səviyyəsində qalmaqdadır. Musiqi məktəblərində, kolleclərdə, orta ixtisas musiqi məktəblərində fortepiano, skripka, və b. alətlərin hər bir sinfi üçün tədris repertuarı bol olduğu halda, bu sözü nəfəs alətləri haqqında demək mümkün deyil. Məsələn, 1-ci sinifə davam edən, fortepiano, skripka şöbələrinin şagirdlərinə məhz bu sinif üşün nəzərdə tutulan pyeslər keçilir. Lakin nəfəs alətlərinin 1-ci sinfinə gedən məktəblilərə keçməyə pyes yoxdur 1-ci sinifə gedən və aləti yenicə öyrənən şagirdə ixtisas dərsində, imtahanda, konsertdə çalmağa bu alət üçün yazılan pyes tapılmır. Şagird - gələcəyin ifaçısı nəfəs alətində musiqi təhsilini belə başlayır...

Bir həqiqəti də etiraf edək ki, orta ixtisas musiqi məktəblərinin, musiqi kolleclərinin və ali musiqi məktəblərinin yuxarı sinif şagird və tələbələri ifa etməyə əsərlər tapa bilmirlər. Musiqi müəllimləri yaxşı bilirlər ki, peşəkar ifaçılıq kadrlarının yetişməsi tədris repertuarından çox asılıdır. Əgər nəfəs alətinə gedən şagird 1-ci sinifdən 5-ci sinifə qədər onun ifaçılıq texnikasını inkişaf etdirən nəfəs aləti üçün yazılan əsərlər əvəzinə başqa alət üçün köçürülən əsərlər, mahnılar çalırsa, bu, tədrisin və ifaçılığın qarşısında ciddi maneədir. Demək olar ki, tədrisdə Avropa, rus bəstəkarlarının pyesləri kifayət qədərdir. Lakin belə vəziyyətlə öyünmək yox, narahat olmaq lazımdır.

Gəlin, real çıxış yollarını və vasitələrini təhlil edək. Real çıxış yolları isə mövcuddur, sadəcə onları təşkil etmək, hərəkətə gətirmək, həyata keçirmək, müəllim təcrübəsinə və əməyinə layiqli qiymət verə bilmək lazımdır. Onu həll etmək üçün hər cür imkanımız var: qeyri-maddi irsin yaşaması və təbliği üçün real, uğurlu və davamlı layihələr, təcrübəli müəllimlər, adlı-sanlı ifaçılar, metodik mərkəzlər, kafedralar, yaxşı iş şəraiti, istedadlı bəstəkarlar. Sadəcə qalır, bu işi birlikdə, ağıllı, səmərəli və sürətli həll etmək istəyimiz, real həll olma imkanlarımızın düzgün təşkili və nəfəs alətlərinin tədrisinə, ifaçılığına professional münasibətimiz. Nəfəs alətlərinin dünyada təbliği, dövlətimizin mədəniyyətə, musiqi ifaçılarımıza diqqətindən, eyni zamanda müəllimlərin nəfəs alətlərimizin tədrisində peşəkarlıqlarının artırılmasına, tədris metodlarından səmərəli istifadənin vacibliyindən danışdıq. Nəfəs alətlərinin geniş yayılması və məşhurlaşması üçün onların təbliğatı aparılmalıdır. Bu musiqi alətlərinin tədrisi, tədqiqi və təbliği ilə peşəkarlar məşğul olmalıdırlar.

Demək olar ki, nəfəs alətlərində eniş bu gün də var və hələ də davam edir. Belə qənaətə gəlmək olar ki, bir vaxt gələcək biz xaricdən ölkəmizə işləməyə musiqiçi dəvət edəcəyik. Bu, təkcə nəfəs alətlərinə aid deyil, digər simfonik orkestr üçün lazımlı olan musiqi alətləri üzrə mütəxəssislər də azdır. Nəfəs musiqi alətlərini ifa etmək üçün insanda ruh, işləmək, çalışmaq istəyi olmalıdır. Bu sənət forma tələb edir. Bunun üçün də həyatını, özünü bu işə sərf etməlisən. Simfonik orkestrdə olmaq üçün insandan bu tələb olunur. Musiqi mədəniyyətimizin yeni yüksəlişi, yeni böyük nailiyyətləri naminə ifaçılıq sənətinə tələbkarlığı artırmaq, həqiqi istedadları qayğı ilə tərbiyələndirmək, onları qocaman ifaçılarımızın zəngin təcrübəsi ilə silahlandırmaq lazımdır. Sənətkarlıq, yüksək tələbkarlıq bizim ən müqəddəs vəzifəmizdir. Bunsuz əsil sənət və əsil sənətkar yoxdur”. Nəfəs musiqi alətlərinin tədrisi, bu alətlərdə ifaçılıq sənətinin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Eyni zamanda məktəblərdə ustad dərsləri, təcrübə mübadilələri bu sahənin inkişafına öz töhfəsini verəcək.

Son illərdə Naxçıvan Muxtar Respublikasında mədəniyyətə qayğının daha da artması və həyatını musiqiyə həsr edən insanların fəxri adlara layiq görülməsi çox sevindirici haldır. Musiqi sahəsində fərqlənən istedadlı gənclərin qabiliyyətlərinin qiymətləndirilməsi, təqaüd və müxtəlif mükafatlarla təqdim edilməsi muxtar respublika gənclərinin öz üzərlərində daha səylə çalışmalarına güclü təkan verir. Hər il musiqi sahəsində fərqlənən şagird və tələbələr Prezident təqaüdünə layiq görülür. Gəncliyə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu il NDU-da magistrlərin işlə təmin olunması rəhbərliyin bu sahədə atdığı addımlar ölkəmizin tələbə gəncliyinə göstərilmiş böyük qayğının daha bir əməli ifadəsidir. NDU-nun daha parlaq gələcəyi naminə tələbə gənclərə göstərdiyi qayğını yüksək qiymətləndirir və rektorumuzun universitetimizin daha böyük inkişafı üçün atdığı addımları tələbələrin sabahına hesablanmış, düşünülmüş qərarlar kimi qəbul edirik. Bütün bunlar həm də tələbələrin üzərinə böyük vəzifələr qoyur. İnanırıq ki, tələbələrimiz daha səylə oxuyaraq, NDU-nin ümidlərini doğrultmaq, ölkəmiz üçün yüksək hazırlıqlı, vətənpərvər kadr potensialına çevrilmək üçün var qüvvə ilə çalışacaqlar.

**ƏDƏBİYYAT**

1.Copyright by Musigi dyniasi magazine
2.www.musigi-dunya.az ›
3.wikipedia.anarim.az
4.elmimeqaleler.wordpress.com

***E-mail:elviraliyeva 71@gmail.com**

**Elvira Aliyeva**

**TEACHING AND MODERN PROBLEMS OF BREATHING APPARATUS**

"There are few musical instruments specialists who are necessary for symphonic and breathing orchestras." “It is necessary to keep this art alive. We wish to see the future of symphonic and breathing orchestras bright. As my colleagues, I think that it is necessary to create love and trust in them in order to keep this sphere alive and young people moving forward in art. Engaged in classical music, it is difficult art to keep it alive, those who go this way to the end are tolerant people. When we were studying at the music college, the teachers noted that if one of the 5 people would step this way decently and shine in this art, then this art would live.

Mirza Ibrahimov said: "teaching ! It is an art that I hold highest after writing. Try to be so sensitive to children that you can ignite the crevices in their hearts, after which they themselves will move forward. And in the future you saw them shining and happy, and you were a hundred times

**Key words:** *music, wind instruments,*

**Эльвира Алиева**

**ОБУЧЕНИЕ ДЫХАТЕЛЬНЫМ ИНСТРУМЕНТАМ И СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ**

«Существует мало специалистов по музыкальным инструментам, которые необходимы для симфонических и духовых оркестров». “Это искусство нужно поддерживать. Мы мечтаем увидеть светлое будущее симфонических и духовых оркестров. Я, как и мои коллеги, считаю, что для того, чтобы эта сфера жила, чтобы молодежь шла вперед в искусстве, нужно создавать в них любовь, доверие. Заниматься классической музыкой и поддерживать ее в живых-само по себе трудное искусство, те, кто прошел этот путь до конца, - выносливые люди. Когда мы учились в музыкальном колледже, преподаватели отмечали, что если кто-то из 5 человек будет достойно идти по этому пути, блистать в этом искусстве, значит, это искусство будет жить.

Мирза Ибрагимов сказал: "обучение ! После того, как я пишу, это искусство, которое я ценю больше всего. Постарайтесь быть настолько чуткими к детям, чтобы вы могли зажечь искру в их сердце, после чего они сами пойдут вперед. И когда вы видите, что они сияют, счастливы в будущем, вы сто раз

**Ключевые слово:** *музыка, духовые инструмент,*

*(AMEA-nın müxbir üzvü İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.08.2021**
**Son variant 20.09.2021**